# Qərbi Azərbaycan məsələsi heç vaxt gündəlikdən çıxmayacaq




Ermənistanın və erməniliyin növbəti dəfə çaxnaşma vəziyyətinə düşdüyü aydın görünür. Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli telekanallara verdiyi müsahibədə səsləndirdiyi fikirlər düşmən tərəfdə ciddi narahatlıq yaradıb. Ermənistan rəhbərliyi, xüsusilə baş nazir Nikol Paşinyan və xarici işlər naziri Ararat Mirzoyan ictimaiyyət qarşısında qeyri-müəyyən və səthi açıqlamalar verməklə kifayətlənib.

**(davamı 6-cı səhifədə)**







# Qərbi Azərbaycan məsələsi heç vaxt gündəlikdən çıxmayacaq








(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin çıxışı təkcə prinsipial siyasi mövqe deyil, həm də Ermənistanın son təxribatçı addımlarına qarşı sərt xəbərdarlıq idi. Azərbaycan lideri Vətən müharibəsində əldə olunan qələbənin məntiqi nəticələri ilə yanaşı, antiterror tədbirlərinin uğurla həyata keçirilməsinin Ermənistanı məcbur duruma saldığını vurğuladı. Azərbaycanın prinsipial mövqeyi və hərbi uğurları, xüsusilə 4 kəndin güllə atılmadan qaytarılması faktı düşmən tərəfdə qorxu və çaşqınlıq yaradıb.

Son günlər Ermənistanın Laçın və Naxçıvan istiqamətində törətdiyi təxribatlar Paşinyan hökumətinin daxili siyasi böhranı ört-basdır etmək məqsədilə atdığı uğursuz addımlardır. Prezidentin verdiyi mesajlar açıq və kəskin idi: Ermənistan silahlanmaqdan əl çəkməsə, daha ciddi nəticələrlə qarşılaşacaq. Dövlət başçısı Zəngəzur dəhlizi və Qərbi Azərbaycan məsələsini vurğulayaraq bildirdi ki, əgər 4 kəndin qaytarılması mümkün oldusa, Zəngəzur dəhlizinin açılması və Qərbi azərbaycanlıların ata-baba torpaqlarına qayıtması da labüddür.

Ermənistan tərəfinin tarixi saxtalaşdırmaq cəhdləri, xüsusilə Ararat Mirzoyanın Qərbi Azərbaycan İcması ilə bağlı bəyanatları tam əsassız və qərəzlidir. Tarixi faktlar sübut edir ki, son iki əsrdə Cənubi Qafqazda azərbaycanlılara qarşı sistemli etnik təmizləmə siyasəti həyata keçirilib. 1948-1953-cü və 1987-1991-ci illərdə yüz minlərlə azərbaycanlının doğma torpaqlarından zorla qovulması bu siyasətin tərkib hissəsidir.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın XİN rəhbəri Ararat Mirzoyanın yanvarın 8-də səsləndirdiyi iddialara cavab verərək bu açıqlamaların tarixin saxtalaşdırılması olduğunu bildirib. Nazirliyin sözçüsü Ayxan Hacızadə Mirzoyanın Qərbi Azərbaycan İcması və azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası ilə bağlı irəli sürdüyü fikirlərin əsassız olduğunu bəyan edib. Rəsmi açıqlamada qeyd olunur ki, son iki yüz ildə ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi nəticəsində azərbaycanlılar öz tarixi torpaqlarından sıxışdırılıb. Minlərlə tarixi-mədəni abidənin məhv edildiyi, 2000-dən çox toponimin adının dəyişdirildiyi, azərbaycanlıların isə kütləvi qətl və deportasiyalara məruz qaldığı vurğulanıb. Xüsusilə 1948-1953-cü illərdə 150 minə yaxın azərbaycanlının zorla deportasiya edildiyi, 1987-1991-ci illərdə isə növbəti deportasiya dalğasında 250 mindən çox azərbaycanlının Ermənistandan qovulduğu bildirilib. Sonuncu deportasiya zamanı guya azərbaycanlılara kompensasiya ödənildiyinin və onların könüllü köçdüyü barədə iddiaların tamamilə əsassız olduğunu deyib. O, həmin dövrdə 216 nəfər azərbaycanlının qətlə yetirildiyini qeyd edib.

Azərbaycan XİN bu tarixi faktların hüquqi sənədlərlə təsdiqləndiyini bildirərək Ermənistanın "Qərbi Azərbaycan İcması" ifadəsini "ərazi iddiası" kimi təqdim etməsinin riyakarlıq olduğunu vurğulayıb. Ermənilərin azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışına mane olmaq siyasəti Levon Ter-Petrosyan və digər erməni liderlərinin irqçi-şovinist siyasətinin davamı kimi qiymətləndirilib. Rəsmi Bakı Ermənistanın Qərbi Azərbaycan İcmasının sülh yolu ilə və təhlükəsiz şəkildə geri qayıdışına şərait yaratmağa çağırıb. Ermənistanın monoetnik dövlət siyasətindən imtina etməli olduğu və birgəyaşayış üçün bu qayıdışı təmin etməsinin zəruri olduğu vurğulanıb.

Qərbi Azərbaycan İcması (QAİ) erməni nazirin fikirlərinə sərt reaksiya verərək yalan iddiaların yayılmasına son qoyulmasını və Ermənistandan qovulmuş azərbaycanlıların legitim tələbləri ilə bağlı konkret dialoqun başlanmasını tələb edib: "Mirzoyanın Ermənistanın Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış məsələsini ərazi iddiası kimi təqdim etməyə çalışması və məzmunca ziddiyyətli bəyanatında "Qərbi Azərbaycan" ifadəsinə irad tutması əsassızdır. "Qərbi Azərbaycan" ifadəsi həmin məkanda yaşamış azərbaycanlıların özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdikləri və tarixi həqiqətlərə söykənən termindir".

Bəyanatda, həmçinin Mirzoyanın azərbaycanlıların Ermənistandan "könüllü tərk etməsi" və onlara "kompensasiya ödənməsi" ilə bağlı irəli sürdüyü iddiaların bir-birinə zidd olduğu vurğulanıb. QAİ bu iddiaların heç bir əsasının olmadığını və əgər azərbaycanlılar həqiqətən könüllü şəkildə öz evlərini tərk ediblərsə, onlara niyə təzminat ödənildiyini sual edib. İcma Ermənistanın azərbaycanlıların qayıdış hüququnu rədd etməsinin ciddi insan hüquqları pozuntusu olduğunu bildirərək bunun cinayət olduğunu qeyd edib. Eyni zamanda Ermənistanın siyasi rəhbərliyinin Azərbaycan xalqına qarşı nifrət dolu münasibətinin əvvəlki liderlər Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarqsyan dövründən dəyişmədiyini və bu davranışın demokratiya və insan hüquqları barədə səsləndirdikləri fikirlərlə tam ziddiyyət təşkil etdiyi bildirilib. Qərbi Azərbaycan İcması Ermənistanı beynəlxalq hüquqa hörmət etməyə və azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz torpaqlarına qayıtma hüququnu təmin etməyə çağırıb.

İlham Əliyevin müsahibəsində vurğuladığı kimi, Ermənistan rəhbərliyi regionda sülhə nail olmaq istəyirsə, tarixi ədalətsizliklərə son qoymalı və azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarına qayıdış hüququnu tanımalıdır. Dövlətimizin prinsipial mövqeyi dəyişməzdir: sülh müqaviləsi real tarixi ədalətə və beynəlxalq hüquqa uyğun olmalıdır.

Azərbaycan liderinin qətiyyətli mövqeyi Ermənistan cəmiyyətində də ciddi sarsıntılar yaradıb. Erməni ekspertlər və media nümayəndələri açıq şəkildə bildirirlər ki, Paşinyan hökumətinin siyasəti Ermənistanı daha ağır nəticələrə doğru sürükləyir. Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl və prinsipial siyasəti nəticəsində daha da güclənir. Ermənistanın siyasi rəhbərliyi isə bu təzyiqə cavab verməkdə acizdir.

Nəticə etibarilə, Ermənistan ya tarixi həqiqətləri qəbul edərək Azərbaycanla sülh sazişi bağlayacaq, ya da silahlanma siyasətini davam etdirərək daha böyük faciələrlə üzləşəcək. Prezident İlham Əliyevin dediyi kimi: "Yəni bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar".

**Tacir SADIQOV.**
**"Respublika".**



Xalq qəzeti .- 2025.- 10 yanvar (№ 04). - S.1;6.